## Dövlət rüsumları internet vasitəsilə ödəniləcək

Milli Məclis «Dövlət rüsumu haqqında» Qanuna dəyişiklik edib. Dövlət rüsumunun ödənilməsi qaydaları ilə bağlı bu dəyişikliyə əsasən, vətəndaşlar dövlət rüsumlarını elektron ödəmə sistemləri, o cümlədən internet vasitəsilə də ödəyəcəklər. Dövlət rüsumunun nağd şəkildə ödənilməsi barədə ödəyiciyə müəyyən edilmiş formada bank və ya poçt qəbzinin əsli, elektron ödəmə sistemləri, o cümlədən internet vasitəsilə ödənildikdə müvafiq ödəmə sistemindən çıxarış, ödəyicinin hesabından köçürüldükdə isə ödənişin icrasını təsdiqləyən bank və ya poçt sənədi veriləcək.

Məlum olduğu kimi, vergi, rüsum, icarə haqqı, digər ödənişlərin dövlət qurumlarına birbaşa ödənilməsi yolu ilə bankdankənar nağd qaydada aparılmasının aradan qaldırılması, təsərrüfat subyektlərində nağd hesablaşmaların minimuma endirilməsi, inzibati xətalara görə cərimələrin, gömrük ödənişlərinin, xüsusi razılıq tələb olunan sahələr üzrə rüsumların bank vasitəsilə ödənilməsinin təmin edilməsi bütövlükdə nağdsız ödənişlərin stimullaşdırılmasına xidmət edir. Bu məqsədlə hökumət e-ödənişlərin tətbiqinin genişləndirilməsi üçün lazım olan bütün hüquqi və texniki məsələləri həll edib.

Milli Məclisin iqtisadi siyasət komitəsinin üzvü Əli Məsimlinin sözlərinə görə, rüsumların elektron formada ödənilməsi bir sıra hallarda müəyyən qurumlar tərəfindən yaradılan neqativ halların aradan qaldırılması, vətəndaşlar üçün rahatlığın yaradılması baxımından mühüm əhəmiyyət kəsb edir. Ödənişlərin elektronlaşdırılması sistemi dövlət-biznes münasibətlərinin minimuma enməsi baxımından da mühüm əhəmiyyət kəsb edir. E-ödənişlərin tətbiqi ölkədə nağdsız hesablaşmaların bir istiqaməti olmaqla, bu sahənin daha geniş inkişafına şərait yaradacaq.

E-ödəniş sisteminin yaradılması «Elektron hökumət» proqramının ən mühüm tərkib hissələrindən biridir: bu sahədə modern və çevik idarəetmənin yaradılması, şəffaflığın təmin edilməsi, korrupsiyaya şərait yaradan halların aradan qaldırılması dövlətin strateji məqsədlərindəndir. Məhz bu baxımdan, bir sıra fəaliyyət sahələri ilə bağlı rüsumların və digər ödənişlərin real vaxt rejimində elektron formada ödənilməsinin təmin edilməsi çox mühüm əhəmiyyət daşıyır. Ümumiyyətlə, 2012-ci ildə hökumətin həyata keçirdiyi islahatların ən mühüm istiqamətlərindən biri ölkəmizdə elektron ödənişlər sisteminin tətbiqinin genişləndirilməsidir. Ötən müddət ərzində bu istiqamətdə xeyli işlər görülüb. Müxtəlif dövlət orqanları tərəfindən müəyyən olunmuş lisenziya və icazələrin, icarə haqlarının, xidmətlərə görə rüsumların, cərimələrin, vergilərin, sosial ödəmələrin, digər ödənişlərin elektron ödənişinə başlanılıb.

Nazirlik və komitələrin böyük əksəriyyəti rüsum və ödənişlərin elektron qaydada aparılması üçün Mərkəzi Bank (MB) tərəfindən yaradılmış Kütləvi Ödənişlər üzrə Mərkəzləşdirilmiş İnformasiya Sisteminə (KÖMİS) inteqrasiya edilib. Artıq bir sıra sahələr üzrə rüsum və ödənişlər həmin informasiya sisteminin platformasında Hökumət Ödənişləri Portalı çərçivəsində ödənilir. İstifadəçilərin bir qismi Hökumət Ödənişləri Portalından istifadə etmək üçün «elektron imza» kartı əldə ediblər.

Mərkəzi Bankdan verilən məlumata görə, vətəndaşlar rüsum və digər ödənişləri elektron formada həyata keçirmək üçün KÖMİS-in «www.apus.az» internet saytının köməyindən də yararlanmaq imkanına malikdirlər. Onlar bu sistemin «ödəniş xidmətləri» bölməsində real rejimində qeydiyyatdan keçməklə «Abonent kodu» və «Şifrə» vasitəsilə və ya qeydiyyatdan keçmədən «Qeydiyyatsız ödənişlər» vasitəsilə elektron qaydada ödəniş həyata keçirə bilərlər. «Qeydiyyatsız ödənişlər» vasitəsilə elektron qaydada ödənişin həyata keçirilməsi üçün qeyd edilən bölmənin «Qeydiyyatsız ödənişlər» hissəsinə daxil olmaqla «Müəssisə» xanasında müvafiq qurum seçilir, bundan sonra «ödəniş növləri» pəncərəsində müvafiq sahə üzrə ödəniləcək rüsum «ödəniş məbləği» xanasına salınır və «ödəmək» düyməsi basılmaqla proses başa çatdırılır. Bu prosesin həyata keçirilməsində çətinlik yaranarsa, vətəndaşlar «www.apus.az» internet səhifəsinin «ödəniş mexanizmləri» bölməsində yerləşdirilmiş video-təlimatlardan istifadə edə bilərlər.

Elbrus CƏFƏRLİ